**Ü.Ç.ƏLİYEVA**
*dosent*
*e-mail: ulviyya_28@mail.ru*
**:https://orcid.org/0000-0002-1569-280X**

**Azərbaycan Universiteti**
(Bakı şəh., Nəsimi ray., C.Hacıbəyli küç., 71)

**Azərbaycan Dillər Universiteti**
(Bakı şəh., R.Behbudov küç., 134)

**10.62021/0026-0028.2025.2.154**

# XX ƏSRİN 70-ci İLLƏRİNDƏ İNGİLİS CƏMİYYƏTİNDƏ ƏXLAQİ-MƏNƏVİ DƏYƏRLƏRİN TRANSFORMASİYASI VƏ ƏDƏBİ REFLEKSİYA

***Xülasə.*** *Təqdim edilmiş məqalə XX əsrin 70-ci illərində İngiltərədə baş verən əxlaqi-mənəvi dəyərlərin transformasiyasını və bu dəyişikliklərin ədəbiyyatdakı əksini araşdırır. Sənayeləşmə və qloballaşmanın təsiri ilə ingilis cəmiyyəti daha çox fərdi azadlığa və pluralizmə yönəlmiş, bu da Viktoriya dövrünün sərt əxlaqi prinsiplərinə qarşı bir reaksiyaya səbəb olmuşdur. Burada xüsusilə, Con Faulzun "Fransız leytenantının qadını" romanı üzərində təhlillər aparılır, viktorian əxlaqi dəyərlərinin süqutu və postmodernizmin əlamətləri araşdırılır. Faulz öz əsərində üç fərqli sonluq təqdim etməsi ilə oxucunu ədəbiyyatın "həqiqəti"ni sual altına alır, müəllifin mövqeyinin qeyri-müəyyənliyini və oxucuya yönləndirilmiş seçimi göstərir.*
*Məqalədə həmçinin XX əsrin 70-ci illərində yazılmış digər əsərlərdə də fərdi azadlıqların və kütləvi mədəniyyətin təsirinin mərkəzi mövzu olduğu vurğulanır. Viktorian dəyərlərinin tənqid edilməsi və yeni cəmiyyət modelinin psixoloji və sosial təsirləri, bu dövrün ədəbiyyatında geniş şəkildə əks olunmuşdur.*
*Nəticə olaraq XX əsrin 70-ci illərində İngiltərədə cəmiyyətin sosial, əxlaqi və bədii dəyərlərini yenidən formalaşdıran bir dövr olması və bunun ədəbiyyatda güclü şəkildə öz əksini tapması qeyd olunur.*

***Açar sözlər:*** *əxlaqi-mənəvi, ingilis, cəmiyyət, Viktoriya, qadın*

XX əsrin yetmişinci illəri İngiltərədə sosial və mədəni transformasiyaların sürətlə baş verdiyi bir dövrdür. Bu dövrdə Viktoriya dövrünün dərin iz buraxmış əxlaqi-mənəvi dəyərləri radikal şəkildə dəyişməyə başlamış, cəmiyyətin müxtəlif təbəqələrində fərqli dünyagörüşlər formalaşmışdır. Sənayeləşmənin və qloballaşmanın təsiri ilə ingilis cəmiyyəti modern dünyaya daha açıq olmuş və bunun nəticəsində köhnə dəyərlərə qarşı kəskin reaksiyalar ortaya çıxmışdır. Bu məqalədə həmin dövrdə əxlaqi-mənəvi dəyişikliklər, "kütləvi mədəniyyət" və "kontrmədəniyyət" anlayışları, eləcə də ingilis ədəbiyyatında modernist eksperimentlərin yüksəlişi araşdırılacaqdır.

İngilis cəmiyyətində uzun müddət hökm sürmüş Viktoriya dövrünün əxlaqi prinsipləri XX əsrin ortalarından etibarən tənqid olunmağa başlanmışdı. Xüsusilə 1960-cı illərin sonlarından etibarən cəmiyyət fərdlərin daha çox azadlığa malik olduğu bir modelə doğru irəliləyirdi. Əgər Viktoriya dövrü fərdi mənəviyyatın kollektiv etik kodekslərə tabe olmasını tələb edirdisə, XX əsrin yetmişinci illərində fərdin öz istəklərini və dəyərlərini seçmək hüququ vurğulanmağa başladı [4].

Qeyd olunan prosesin əsas nəticələrindən biri "istədiyini etmək" prinsipinin geniş yayılması oldu. Müasir cəmiyyətin çoxşaxəli və plüralist quruluşu qarşısında bir çox ənənəvi mənəvi dəyərlər ya öz mahiyyətini dəyişdi, ya da tamamilə sıradan çıxdı. Bu vəziyyət bəzi mühafizəkar dairələrdə ciddi narahatlıq doğurmuşdu və cəmiyyətin mənəvi tənəzzülə uğradığı ilə bağlı diskussiyalara səbəb oldu. Bu dəyişikliklər ədəbiyyatda da öz əksini tapdı və bir çox ya-

zıçı cəmiyyətin keçid dövründə yaşadığı dəyərlər böhranını bədii əsərlərində təsvir etməyə cəhd göstərir. Ədəbi əsərlərdə Viktorian dövrünün idealizə olunmuş mənəviyyatına tənqidi yanaşmalar özünü büruzə verirdi. Con Faulz, Doris Lessing və Cozef Hellərin əsərlərində fərdin cəmiyyətin qoyduğu etik çərçivələrdən çıxaraq öz şəxsiyyətini və mənəvi dəyərlərini yenidən kəşf etməsi əsas mövzulardan biri oldu. Con Faulzun "Fransız leytenantının qadını" romanında Viktorian dövrünün sərt əxlaqi qaydalarına qarşı çıxan bir qadının hekayəsi məhz bu dövrün əxlaqi diskurslarını yenidən şərh etməyə imkan yaradırdı. Eyni zamanda qeyd etmək lazımdır ki, yetmişinci illərdə postmodernist eksperimentlərin artması ilə ədəbi mətnlərdə müəllifin avtoriteti azaldılmışdı və oxucunun mətnə təsir imkanları genişləndirildi. Rolan Bartın "Müəllifin ölümü" konsepsiyasına görə mətnin mənası müəllifin niyyəti ilə deyil, oxucunun onu necə oxuması ilə formalaşır. Bu kontekstdən XX əsrin yetmişinci illərində yazılmış postmodern əsərlərdə mətnin tək bir mənaya sahib olmadığı, onun oxucu tərəfindən müxtəlif formalarda interpretasiya edilə biləcəyi vurğulanır. Məhz buna görə müəllifin ənənəvi dominant mövqeyi sarsılmış və mətnin mənasını formalaşdırmaqda oxucunun rolu ön plana çıxmışdı. Ədəbi mətndə çoxvariantlı sonluqlar, metanarrativlər və intertekstual elementlər ədəbiyyatın daha açıq və çoxmənalı bir struktura sahib olmasına səbəb oldu. Bu yeniliklər eyni zamanda kütləvi mədəniyyət və kontrmədəniyyət arasındakı münaqişələrə də işıq saldı. Kütləvi mədəniyyətin yüksəlişi ilə birlikdə populyar ədəbiyyatın və medianın təsiri gücləndi. Ədəbi ənənələrdən uzaqlaşan yeni nəsil oxucuların maraqları kommersiya yönümlü roman və jurnallara yönəldi. Bu, ciddi ədəbiyyatın marjinallaşmasına gətirib çıxardı və ədəbiyyatçılar arasında böyük diskussiyalara səbəb oldu. Bunun əksinə olaraq, kontrmədəniyyət hərəkatı daha çox fərdin mənəvi və intellektual azadlığına əsaslanan, alternativ düşüncə tərzini təşviq edən mətnlər yaratmağa başladı.

Yetmişinci illərin ingilis ədəbiyyatında ailə, cinsiyyət və sosial rollar kimi mövzularda da yenidən qiymətləndirmə baş verdi. Qadın yazıçılar, feminist nəzəriyyələrdən istifadə edərək patriarxal dəyərləri tənqid etməyə başladılar. Doris Lessingin "Qızıl dəftər" əsəri bu baxımdan mühüm bir nümunədir, çünki burada qadınların öz şəxsiyyətlərini yenidən qurması və sosial gender rollarının necə dəyişməsi ətraflı şəkildə təsvir edilir. Bütün bu dəyişikliklər ingilis cəmiyyətində və ədəbiyyatında ciddi təsirlər yaratdı. Ədəbiyyat yalnız cəmiyyətin aynası olmaqla qalmadı, həm də sosial dəyişikliklərin katalizatoruna çevrildi. Müasir dövrün çağırışlarına uyğun olaraq, yetmişinci illərin ingilis yazıçıları cəmiyyətin fərdlərə və azadlığa baxışını yenidən düşünməyə çalışdılar. Bu isə ədəbiyyatın ictimai funksiyasını və onun cəmiyyət üzərindəki təsir gücünü bir daha sübut etdi.

Bu dövrdə yazılmış bir çox əsərlərdə Viktorian dəyərlərinin süqutu açıq və ya dolayı yolla əks olunmuşdur. Məsələn: Con Faulzun (John Fowles) "Fransız leytenantının qadını" ("The French Lieutenant's Woman" (1969)) əsərində Viktorian cəmiyyətinin riyakarlığı, qadınların sərbəstliyinə qoyulan qadağalar və fərdi azadlıqların məhdudlaşdırılması mövzu olaraq ön plana çıxır [5].

Əsərdə Con Milton, Tomas Hardi və Corc Eliot kimi yazıçıların əsərlərinə istinadlar var. Xüsusilə Tomas Hardinin "Tess" və "Jude the Obscure" romanları ilə Saranın hekayəsi arasında paralellər aparmaq mümkündür. Faulz, həmçinin Viktorian romanlarına xas olan bəzi konvensiyaları pozaraq, həmin dövrə tənqidi yanaşır. Təhkiyəçi burada Viktorian aqnostisizmi və ateizmi ilə bir tərəfdən onların əksi kimi görünə biləcək inanc arasında olan paradoksal eyniyyəti Corc Eliotun belə bir fikri vasitəsilə göstərir: "Tanrı təsəvvüredilməzdir, ölməzlik inandırıcı deyil, lakin vəzifə qəti və mütləqdir" (Fowles, 1971, s. 45-46-dan sitat gətirilmişdir)." Əsərin baş qəhrəmanı Sara Viktorian mənəviyyatına uyğun gəlməyən, öz həyatını sərbəst şəkildə yaşamaq istəyən bir qadındır. 1970-ci illərdəki azadlıq anlayışı ilə Viktoriya dövrünün sərt qaydaları arasındakı ziddiyyət bu əsərdə simvolik şəkildə təsvir olunmuşdur. Roman postmodernizmin əsas xüsusiyyətlərini özündə daşıyan əsərlərdən biridir. Əsərdə müəllifin oxucuya birbaşa müraciət etməsi və narrativə müdaxilə etməsi postmodernizmin əsas xü-

susiyyətlərindən biridir. Faulz Viktorian romanının klassik strukturlarını təqlid etsə də, onları eyni zamanda dekonstruksiya edir. Məsələn, əsərdə eyni hekayənin bir neçə fərqli sonluğu təqdim olunur ki, bu da oxucuya müəyyən bir "həqiqət"in olmadığını göstərir. Onun ən mühüm eksperimental yanaşmalarından biri üç fərqli sonluq təqdim etməsidir. Faulz oxucunu bu sonluqların eyni səviyyədə olduğuna inandırmağa çalışsa da, əslində, hər üçü arasında gizli ierarxiya mövcuddur"[6, s. 3].

Postmodern ədəbiyyatda müəllifin mövqeyi qeyri-müəyyən və çoxqatlı olur. Faulz burada açıq şəkildə metafiksiya texnikasından istifadə edir və müəllifin mütləq hakimiyyətini sual altına qoyur. O, oxucuya seçim imkanı versə də, hər üç sonluq arasında incə fərqlər qoyaraq, müəyyən yönləndirmələr edir.

Birinci sonluqda – Çarlz və Sara evlənirlər və Çarlz 114 yaşına qədər yaşayır. Bu versiya açıq-aşkar yumoristik üslubda yazılmışdır və müəllifin özü də bu sonluğu qeyri-ciddi göstərir. Burada realizm qaydaları pozulur və oxucunun gözləntiləri ilə oynanılır. Burada müəllifin istehzası açıq şəkildə hiss olunur. Faulz Viktorian dövrünün klassik romanlarının xoşbəxt sonluqlarına parodiya edirmiş kimi görünür. 114 yaşına qədər yaşamaq qeyri-real görünməklə yanaşı, əsərdəki ümumi realizm prinsipləri ilə də ziddiyyət təşkil edir. Bu, müəllifin ədəbi konvensiyalara qarşı postmodern yanaşmasını nümayiş etdirir [3].

Faulzun bu istehzası həm də Viktorian romanlarının didaktik və determinist xarakterini ələ salmaq məqsədi daşıyır. Ənənəvi Viktorian romanlarında qəhrəmanların taleyi ya əxlaqi cəza, ya da mükafat vasitəsilə həll olunur. Lakin Faulz oxucuya bu cür "mükafatlandırılmış" bir final təqdim edərkən, onun süni və qeyri-real olduğunu vurğulamaq üçün hiperbola və yumordan istifadə edir. Romanın strukturu XIX əsr romanlarının ənənəvi elementlərini özündə daşısa da, müəllifin ironik yanaşması onu postmodernist mətnə çevirir. Faulz Viktorian dövrünü həm realist təsvir edir, həm də onun dəyərlərini tənqid edərək, həmin dövrdəki sosial və mədəni məhdudiyyətlərə işıq tutur. Qadınların sosial mövqeyi, fərdi azadlıqlar və cəmiyyətin riyakarlığı bu kontekstdə xüsusi vurğulanır.

Əsərdə nəql edən təhkiyəçi sadəcə hadisələri izah etmir, həm də onlara ironik və subyektiv münasibət bildirir. O, oxucunu hadisələrin müxtəlif yozumları arasında buraxaraq, həqiqətin subyektivliyini vurğulayır. Bu eyni zamanda, müəllifin ədəbiyyatın "həqiqəti" tamamilə əks etdirə bilməsi ideyasını sual altına qoyduğunu da göstərir. Yəni əgər oxucu bu finalın absurd olduğunu dərhal anlayırsa, digər sonluqların da "mütləq həqiqət" olmadığı fikri ortaya çıxır. Beləliklə, Faulz oxucunu yalnız mətnin deyil, ümumilikdə ədəbiyyatın quruluşu və həqiqət anlayışı üzərində düşünməyə məcbur edir.

"İkinci sonluqda" Çarlz Saraya qovuşur, lakin bu sonluq müəyyən mənada romantik realizmin davamıdır. Burada klassik Viktorian süjetinin tamamlanması hiss olunur.

"Üçüncü sonluqda" Çarlz Saradan ayrılır və onların yolları birdəfəlik ayrılır. Bu versiya daha çox modernist və ekzistensial ton daşıyır, çünki burada qəhrəmanın taleyi açıq qalır.

Faulz oxucuya seçim azadlığı verdiyini bildirsə də, mətn daxilində birinci sonluğu qeyri-ciddi təsvir edərək, onu kənarlaşdırır. Beləliklə, oxucu yalnız ikinci və üçüncü variantlar üzərində düşünməyə məcbur olur. Burada isə açıq sual yaranır: "romantik sonluqmu, yoxsa açıq və ekzistensial sonluqmu?" Postmodernist yanaşma kontekstində üçüncü versiyanın daha "doğru" olduğunu düşünmək olar, çünki o, ənənəvi roman qəliblərini qıraraq, açıq interpretasiya üçün imkan yaradır. Beləliklə, Faulzun iddia etdiyi oxucu azadlığı əslində məhdudlaşdırılmış bir azadlıqdır – oxucu görünüşdə sərbəst olsa da, müəllif onu müəyyən istiqamətə yönləndirir. Bu isə postmodernizmin əsas xüsusiyyətlərindən biri olan "müəllifin qeyri-müəyyən mövqeyi" və "müəllif-oxucu" münasibətlərinin dekonstruksiyası ilə izah oluna bilər [7].

Linda Hutcina postmodernist tarixi roman anlayışında tarixin rekonstruksiya olunmasını və onun subyektiv bir diskurs kimi təqdim edilməsini vurğulayır. "Fransız leytenantının qadını" da bu prinsiplərə uyğun olaraq, keçmişin sabit bir həqiqət olmadığını, onun yenidən yazıla biləcəyini göstərir.

Bu kontekstdə roman yalnız Viktorian dəyərlərini dekonstruksiya etmir, eyni zamanda postmodernizmin ədəbi texnikalarını da özündə ehtiva edərək, müasir oxucuya Viktorian dövrünə alternativ bir baxış təqdim edir.

Bu baxımdan qeyd etmək olar ki, XX əsrin yetmişinci illərində İngiltərədə cəmiyyətin keçirdiyi əxlaqi-mənəvi transformasiyalar ədəbiyyatda da öz əksini tapmışdır. Viktorian dəyərlərinin tənqidi, fərdi azadlıqların vurğulanması və kütləvi mədəniyyətin təsirləri bu dövrdə yazılmış bir çox əsərdə mərkəzi mövzuya çevrilmişdir. Faulz, Drabble, Karter və Amis kimi yazıçılar Viktoriya dövrünün dəyərlərindən birdəfəlik imtina edilməsini, bunun yaratdığı boşluğu və yeni cəmiyyət modelinin psixoloji-sosial təsirlərini ədəbi müstəvidə əks etdirmişlər [8].

XX əsrin 70-ci illərində İngiltərədə əxlaqi-mənəvi dəyərlər ciddi transformasiyaya uğramış, kütləvi mədəniyyət və kontrmədəniyyət arasındakı qarşıdurmalar cəmiyyətin sosial strukturunu müəyyən etmişdir. Bu dövrdə modernist eksperimentlər ingilis ədəbiyyatında güclənsə də, realizm ənənəvi nüfuzunu qoruyub saxlamışdır. Sosial satiranın isə ingilis mədəniyyətinin inkişafındakı əhəmiyyəti dəyişməz qalmışdır. Beləliklə, yetmişinci illər İngiltərədə əxlaqi və bədii dəyərlərin yenidən qiymətləndirildiyi və formalaşdığı bir dövr kimi xarakterizə oluna bilər.

***Məqalənin elmi nəticəsi.*** Bu məqalədə XX əsrin yetmişinci illərində İngiltərədə baş verən sosial və mədəni transformasiyaların ingilis ədəbiyyatına təsiri araşdırılmışdır. Viktorian dəyərlərinin tənqid edilməsi, fərdi azadlıqların vurğulanması və postmodernist eksperimentlərin genişlənməsi bu dövrdə yazılmış əsərlərin əsas xüsusiyyətləri kimi müəyyən edilmişdir. Con Faulzun “Fransız leytenantının qadını” romanının təhlili göstərir ki, postmodernist təhkiyə texnikaları müəllif və oxucu münasibətlərini yenidən qurur və mətnin çoxqatlı interpretasiyasına imkan yaradır. Eyni zamanda, bu dövrdə ingilis cəmiyyətində kütləvi mədəniyyət və kontrmədəniyyət arasındakı qarşıdurmaların bədii müstəvidə əksini tapması sübut olunmuşdur.

***Məqalənin elmi yeniliyi.*** Məqalədə XX əsrin yetmişinci illərində İngiltərədə baş verən əxlaqi-mənəvi dəyişikliklərin ədəbiyyata təsiri postmodernist ədəbiyyat kontekstində təhlil edilir. Xüsusilə, Faulzun romanındakı çoxvariantlı sonluqların struktur-funksional tədqiqi aparılmış, onların oxucu təcrübəsinə və mətnin dekonstruksiyasına təsiri göstərilmişdir. Viktorian dəyərlərinin postmodernist əsərlərdə necə yenidən qiymətləndirildiyi məsələsi də detallı şəkildə araşdırılmışdır. Bu məqalədə təqdim olunan dövrün ədəbi proseslərinin sosial və ideoloji kontekstlə əlaqəsinin müxtəliv variantlarda üzə çıxarılması onun elmi yeniliyini şərtləndirir.

***Məqalənin tətbiqi əhəmiyyəti.*** Məqalənin nəticələri ingilis ədəbiyyatının inkişaf mərhələlərini, xüsusilə Viktoriya dövrü ilə postmodernizm arasındakı keçidi araşdıran tədqiqatçılar üçün faydalıdır. Bundan əlavə, məqalədə təqdim olunan nəzəri yanaşmalar və təhkiyə metodlarının təhlili ədəbiyyatşünaslıq, mədəniyyətşünaslıq və sosiologiya sahələrində tədqiqat aparanlar üçün praktik əhəmiyyət daşıyır. İngilis dilində tədris olunan müasir ədəbiyyat kurslarında da bu məqalədən istifadə edilə bilər, çünki burada ədəbi mətnlərin tarixi-sosial kontekstdə necə formalaşdığı və inkişaf etdiyi məsələsi tədqiq edilmişdir.

**Ədəbiyyat**

1. Con Faulzun “Fransız leytenantın qadını” romanında zaman-məkan əlaqələri: // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. – Bakı: Mütərcim, – 1997.
2. Con Faulzun yaradıcılığında düz xətli süjet ve kompozisiyadan imtina XX əsrin ədəbi fikrinin inkişafında əsas tendensiya kimi: // Filologiya məsələləri. – Bakı: Mütərcim, – 1997.
3. Горобченко, И.В. Романы Джона Фаулза. Творческая эволюция // 10.01.05. Дисс. На соиск. Уч. Ст. канд. филолог, наук. – М., – 1996-184 с.
4. Долинин, А. Паломничество Чарльза Смитсона // Фаулз Дж. Падруга французского лейтенанта. –Л., – 1985, – с. 3-19
5. Fowles, J. The French Lieutenants woman // J. Fowles, – Publisher: Triad Granada – 1981. – 380 p.

6. Hoy Thomas, Possession, Self-possession and Multiple Selves in the Writings of John Fowles/ Journal of English Studies, / Vol. 13. №. 1, – 2018
7. Sharon, A. Christy, P. / Experimentation and Postmodernism in The French Lieutenant's Woman, PG and Research Department of English, Lady Doak College, – 2019, – 121 p.
8. Palmer, W. The Fiction of John Fowles. Tradition, Art and Selfhood Columbia Univ. of Missouri Press, – 1974-114 p.

**U.Ch.Alieva**

**Transformation of Moral and Spiritual Values in English Society in 1970s and Literary Reflection**

***Summary***

The article considers the transformation of moral and spiritual values in England in the 1970s and the reflection of these changes in literature. With the impact of industrialization and globalization, English society became more inclined to individual freedom and pluralism, which led to a reaction against the strict moral principles of the Victorian era. Here, in particular, John Fowles's novel "The French Lieutenant's Woman" is analyzed, the collapse of Victorian moral values and postmodernist features of the novel are investigated. Three different endings in Fowles' novel make the reader question the "truthfulness" of literature, shows the uncertainty of the author's position and reader-forwarded option.

The article also emphasizes that individual freedoms and the influence of mass culture are central themes in other works written in the 1970s. Criticism of Victorian values and the psychological and social effects of the new society model were widely reflected in the literature of this period.

In the conclusion, it is mentioned that the 1970s in England was a period that reshaped the social, moral and artistic values of the society, and this was strongly reflected in the literature.

***Key words:*** *moral-spiritual, English, society, Victorian, woman*

**У.Ч.Алиева**

**Трансформация моральных и духовных ценностей в английском обществе в 1970-е годы и литературная рефлексия**

***Резюме***

В статье рассматривается трансформация моральных и духовных ценностей в Англии в 1970-е годы и отражение этих изменений в литературе. Под влиянием индустриализации и глобализации английское общество стало более склонным к индивидуальной свободе и плюрализму, что вызвало реакцию против жестких моральных принципов викторианской эпохи. В данной статье рассматривается роман Джона Фаулза «Женщина французского лейтенанта», исследуется падение викторианских моральных ценностей и основные черты постмодернизма. Три разные концовки в романе Дж.Фаулза заставляют читателя усомниться в «правдивости» литературы, показывают неопределенность авторской позиции и выбора читателя.

В статье также подчеркивается, что свобода личности и влияние массовой культуры являются одними из основных тем произведений, написанных в 1970-е годы. Критика викторианских ценностей, психологических и социальных последствий новой модели общества полностью отражена в литературе этого периода.

В заключении отмечается, что 1970-е годы в Англии были периодом, который изменил социальные, моральные и художественные ценности общества, что, также, нашло свое отражение в литературе.

***Ключевые слова:*** *морально-духовный, английский, общество, викторианский, женщина*

*Rəyçi: filol.f.d., dos. Ü.H.Rəhimova*

*Redaksiyaya daxil olub: 01.04.2025*